# MİR CƏLAL PAŞAYEVİN NƏSRİNDƏ XOŞBƏXTLİK KONSEPTİ

## The Consept of Happiness in Mir Calal Pashayev's Prose

**Jalə XƏLILLI**[*]

***Özet:*** *Mekalede XX yüzyıl ünlü Azerbaycan yazarı Mir Celal Paşayevin nesr eserlerinde mutluluk konsepti araştırılmıştır. Burada hem yazarın konseptual görüşleri, hem de yazarın yarattığı karakterlerin mutluluk hakkında düşünceleri kendi yansımını bulmuştur. Eserlerin tahlilinden belirlenmiştir ki Mir Celal için en önemli mesele insandır ve onun mutluluğudur. Yazarın mutluk konseptinin esasını insan özgürlüğü, fikir ve düşüncelerini özgürce ifade ede bilmesidir.*

***Anahtar kelimeler:*** *Mir Celal, Nesr, Konsept, Mutluluk.*

***Abstract:*** *The article deals with the consept of happiness by Mir Calal Pashayev's prose. The auther analysed the meaning of of consept and the conseptualbasis of the works. The human happiness is the most important question for Mir Calal. The real happiness in the consept of the writer is freedom.*

***Key words:*** *Mir Calal, Consept, Prose, Happiness*

"Konsept insan şüurunda mədəniyyət toplusu kimidir; odur ki, onun sayəsində mədəniyyət insanın mental aləminə daxil olur." Linqvokulturoloji yanaşmaya uyğun olaraq konsept mədəniyyətin baza vahidi kimi qəbul edilir. Başqa deyilişlə, konsept "bizim şüurumuzun mental və psixi resurslarının və insanın bilik və təcrübəsini əks etdirən informasiya strukturunun vahididir; insan psixikasında əks olunmuş dünyanın mənzərəsinin, beynin konseptual sistemi və dilinin, mental leksikonun, yaddaşın operativ, dolğun vahididir." Bütün təhlil edilmiş yanaşmalar müəyyən dəyərə malikdir. Belə ki, onlar dildə konseptlərin maddi ifadə olunma şəklinin izahının müxtəlif vasitələrini göstərir və onların tədqiqat yollarını təqdim edir.

Beləliklə, konsept dildə ifadəsi olan, etnik-mədəni səciyyə daşıyan, fərdin və ya kollektivin bilik və təcrübəsini əks etdirən idrak vahididir.

[*] Bakı Qızlar Universiteti

Bədii əsərin mərkəzində dayanan insan və onun taleyi isə həmin mənəvi-psixoloji mühitin, cəmiyyətin ab-havası ilə şərtlənir. Burada müxtəlif həyati hadisələr fonunda gerçəklənən insan və onun taleyi dövrün, mühitin, cəmiyyətin zamanın kontekstində açıqlanır, durulur. Sənətkar insan taleyinin ən gərgin anlarına belə dərindən nüfuz etdikcə mənfiliklərin, eybəcərliklərin inkarı zəminində Böyük İnsan obrazı yaradaraq oxucuları zəngin mənəvi-əxlaqi keyfiyyətlərlə, saf, təmiz ülvi hisslərlə yaşamağa çağırır. Sənətkar eyni zamanda yaratdığı obrazı canlı varlıq kimi daxili-psixoloji dərinliyi ilə əks etdirməklə bədii faktın reallığına zəmin yaradır.

Xoşbəxtlik sözü özündə bəxt, qismət, gələcək və s. semantik çalarları ifadə edir. Bu anlayışın əsas hissəsi bəxtdir. Bəxt sözü tale, qismət, alın yazısı kimi leksik-semantik əhatə dairəsinə malikdir. Bu ifadələr bəxt anlayışının həm sinonimi, həm tərkib hissəsi, həm də onun əsas atributlarıdır.

Mir Cəlalın yaratdığı obrazlarda da qədimlərdən bəri insanların təfəkküründə formalaşmış bu xüsusiyyətlər mövcuddur.

Mir Cəlal Paşayevin nəsrində biz xoşbəxtlik konseptini iki şəkildə görürük:

1. Yazıçının yaratdığı obrazların xoşbxtlik haqqında düşüncələrində. Yazıçı özünün xöşbəxtlik konsepsiyasını yaratdığı obrazlar vasitəsilə təqdim edir.

2. Yazıçının xoşbəxtlik haqqında verdiyi fikirlərdə. Yazıçı müxtlif müəlliflərdən epiqraflar verir və bu zaman əsərdəki ideya ilə onu əlaqələndirir. Məsələn, yazıçı "Bir gəncin manifesti"ndə Lev Tolstoyun belə bir fikrini verir: "Bütün xöşbəxt ailələr bir-birinə bənzəyirlər, bədbəxt ailələrin isə hərəsi bir cür bədbəxtdir".

"Dirilən adam" romanındakı Qədir obrazı bəxt, tale, qismət anlayışlarının məna əlaqələrini özündə təcəssüm etdirir. Qədir qullağa getmək məqsədilə öz el-obasından ayrılmalıdır. Taleyin ona müəyyənləşdirdiyi yol onun üçün naməlumdur. Belə bir səfərə hazırlaşarkən o, hər şeyi nəzərə alır, bu yolun sonunda qayıtmamağın da mümkün olduğunu dərk edir. "İndi o, qaranlıq, aqibəti naməlum bir səfər üçün bu yerlərdən ayrılırdı. Ya qismət! Bəlkə bir daha qayıtmayacaq. Bir də buranın səhərinə göz açmayacaq, axşamlarını dinləməyəcək." (s.24) Bu zaman Qədirin arxalandığı, adını tutub səfərə çıxdığı yeganə ümid mənbəyi qismətdir. O, qismətə inanır. Hətta geri qayıtmamağın da qismətində varsa, mümkünlüyünü qəbul edir. Burada qismət anlayışının tale ilə yaxınlığı çox aydın görünür. Obrazın qismətə inamı onun əslində taleyə inamını əks etdirir. Bu isə tale konsepti kontekstində qismət anlayışının taleyin önəmli atributu olduğunu sübut edir. Bundan başqa bu romanda yazıçı obrazları

vasitəsilə daha bir tale atributu olan bəxt anlayışına toxunur. Bəxt anlayışının tale ilə yaxınlığını göstərmək üçün məşhur bir atalar sözünü misal göstərmək istərdim: "Özün gözəl olunca, bəxtin gözəl olsun." Bəxt burada hər bir insan üçün vacib olan amil kimi göstərilir. İnsanın həyatında onun üçün yaxşı nəticələnən hadisə baş verdikdə ona "bəxtin açılıb", əksinə olduqda isə "bəxtin bağlanıb" kimi ifadələr çox işlənir. İnsanlar yalnız bununla kifayətlənmir, hətta, bağlı bəxti açmaq üçün bəzi ayinlər keçirir, müxtəlif inanclara üz tuturlar.

Bəxtəvərlik tale konseptinin tərkibinə daxil olsa da insan taleyinin maksimum nikbin aspektini nəzərdə tutur. Bəxtəvər tale bədii əsərdə şəxsləndirilmiş obraz kimi deyil, daha çox motiv və onu ifadə edən digər işarə və atributlarla çıxış edir. Bu xüsusiyyətlər Mir Cəlal yaradıcılığında xüsusilə qabarıq şəkildə görünür. Yaradıcılığının əsas mərkəzində insan taleləri duran Mir Cəlalın nəsrində müxtəlif mənəviyyatlı insan obrazlarının xoşbəxtlik haqqında baxışları da öz aydın ifadəsini tapmışdır.

Xoşbəxtlik anlayışı özlüyündə tam şərh oluna bilməyən anlayışdır. Belə ki, bunu hər kəs müxtəlif cür anlayır və şərh edir. Bu anlayışın hər kəs tərəfindən özünəməxsus cəhətdən anlaşılıb şərh olunması onun tam izahının olmadığını göstərir. Mir Cəlalın obrazlarının da bu haqda öz fikirləri var.

Yazıçı bu konsepti bütün yaradıcılığı boyu bütün mümkün vasitələrlə şərh etməyə çalışmışdır. Bunu yazıçının romanlarında və hekayələrində də aydın şəkildə müşahidə etmək olar. "Bir gəncin manifesti", "Açıq kitab", "Dirilən adam" və başqa romanları ilə yanaşı ayrıca olaraq "Xoşbəxtlik barəsində" adlı hekayəsində bu konsepti bədii şəkildə şərh etmişdir. "Xoşbəxtlik barəsində" adlı hekayəsində yazıçı xoşbəxtliyi azadlıqda (ürəyindən keçəni deyə bilməkdə) görür.

1964–cü ildə yazdığı bu hekayəsində yazıçı xöşbəxtlik haqqında konseptual baxışlarını şərh edir və xoşbəxtliyin cavabını aşağıdakılarda axtarır:

1. Sağlamlıq.
2. Ev.
3. Dost.
4. Həyat yoldaşı.
5. Şirin yuxu.
6. Yemək-içmək(sərin pivə, tut arağı, kabab, cücə plov)
7. Evlad.

8. Hörmət.
9. Pul.
10. Vəzifə və vəzifəli arxa.
11. Söz azadlığı.

“Cavanlar” jurnalında təqdim edilən bu sualın cavabını yazıçının yaratdığı yaşlı obrazı cavablandırır və əsl xoşbəxtliyin məhz söz azadlığında olduğunu diqqətə çatdırır.

“Bir gəncin manifesti”ndə Baharın bu barədə fikirləri çox maraqlıdır: “Dama-divara çıxıb qanad çalan, üzünü günəşə tutub banlayan ağ, qırmızı xoruzlar, doqqazda eşələnən al-əlvan fərələr, qırt-qırt edən, analarının yanında xırdaca göbələk kimi görünən, civildəşən sarı cücələr nə qədər xoşbəxtdirlər.”(s.332) Başqalarına adi görünənlər, bəlkə də başqalarının heç fikir də vermədikləri bu həyat mənzərələri onun üçün əsl xoşbəxtlikdir. Bütün bu şeyləri müşahidə edən Bahar özünü onlarla müqayisə edir. Və bu zaman onun xoşbəxtlik haqqında düşündüklərinə digər müşahidələr də əlavə olunur. “Gün bir az qalxan zaman bağ-bağçada oynaşan, talvarlarda söykənib kitaba baxan bəy balaları, kərə yaxmacı yeyən hampa uşaqları nə qədər xoşbəxtdirlər... Damlarında süfrə-süfrə alma, ərik qaxı sərənlər, tut qurudanlar nə qədər xoşbəxtdirlər! Onlar möhtac və ac deyil. Bağların, bağçaların, dirriklərin məhsulu onlarındır. Ağ, qırmızı, şirin sulu əriklər...peyvənd alçalar, gavalı, yaz-payız almaları, kişmişi üzüm salxımları...Bahar baxdıqda ağzı sulanırdı. Həyat ona həm dadlı, həm də acı gəlirdi.” (s.333) Baharın həyat şəraiti onu müşahidə etdiklərinin xoşbəxtliyinə inandırır. Yazıçı əsərin daxili dramatizmini təmin etmək üçün xöşbəxtlik mənasını onun antonimi ilə əlaqədə təqdim edir. Məsələn, “Açıq kitab” romanındakı Ağca xanım Baharın məhrum olduqlarına malik olsa da öz bədbəxtliyindən şikayət edir. Sahib olduqlarını heç də xoşbəxtliyin rəhni hesab etmir. Bütün həyatını göz önündən keçirir, taleyin ona bəxş etdiklərini xatırlayır, özünü ətrafındakı insanlarla müqayisə edir və onların əsl səadəti tapdıqlarına inanır. Bunu düşünən Ağca xanım bu xoşbəxtliyin ondan yan keçdiyini fikirləşir. “Nə üçün bu səadət mənə yaraşmır…” (s.369).

Yazıçının digər romanlarında xoşbəxtlik anlayışının fərqli şərhi ilə qarşılaşırıq. Məsələn, “Yolumuz hayanadır?” romanında maddi məhrumiyyətlər içərisində yaşayan Sabir üçün xoşbəxtlik heç də var-dövlətdə deyil. Onun üçün əsl xoşbəxtlik arzusuna çatıb müəllim olmaq, vətən övladlarına bilik öyrətməkdir. Öz vəziyyətindən narazı olan Sabiri isə dostu onun gözəl şair olduğu, şeirləri dillər

əzbəri olduğu üçün xoşbəxt hesab edir. Bunu onların söhbətlərində aydın görmək olar. "Sən xoşbəxtsən ki, məktəblilər ilə vaxt keçirirsən. Yoxsa "yaza-yaza dərdimi aləmdə kağız qalmadı", oxuyan da ki, mindən bir.

- Xoşbəxt sənsən ki, hər şerin bir aləm açır." (s.34) Bu əsərdə, hətta, taleyin ağır zərbələrini almış Məsməni də xoşbəxt hesab edənlər olur. "-Ay arvad, sən çox xoşbəxt adamsan ki, belə maral kimi, tuti kimi qızın var. Heyfdir, onu buralarda, dağda-daşda çürütmə." (s.56) Onun xoşbəxtliyinə səbəb qızı Əntiqəni, onun gözəl səsini göstərirlər. Əslində elə bunlar onun ən böyük bədbəxtliyinə səbəb olur. Aldadılaraq şəhərə aparılan bacısını geri qaytarmaq istəyən qardaşı Bəndalını dəhşətli cani kimi ittiham edirlər. Bu yolda Bəndalı həyatını da itirir.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, yazıçı xoşbəxtlik anlayışına olan bu cür münasibətləri verməklə insanların düşüncəsində bu anlayışla bağlı mövcud olan müxtəlif yanaşma formalarını, bu anlayışın nisbiliyini, müxtəlif taleyə malik insanların da xoşbəxt ola biləcəyini və ümumiyyətlə, tale konseptində xoşbəxtlik qavramının yeri və rolunu göstərmiş, onun bədii-estetik həllinin nikbin nümunəsini yaratmışdır.

## ƏDƏBİYYAT


**1.** Mir Cəlal. Seçilmiş əsərləri. 2 clddə, 1. c. Romanlar, hekayələr. Bakı, Azərnəşr, 1986.

**2.** Azərbaycan sovet ədəbiyyatı. Bakı, 1984.

**3.** İsmayılov Y. Mir Cəlalın yaradıcılığı, Bakı, 1975.

**4.** Hüseynov Ə. Mir Cəlal. Bakı, 1991.

**5.** Mir Cəlal. Bir gəncin münifesti, Bakı, 1984.